# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI
## Q Ə R A R
## № 13

**Bakı şəhəri** **22 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Əmrah Emin oğlu Əliyevin Dövlət Statistika Komitəsinin aparatında Ümumi şöbənin Sənədlərin idarə olunması sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il iyul ayının 16-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əliyev Əmrah Emin oğlu Dövlət Statistika Komitəsinin aparatında Ümumi şöbənin Sənədlərin idarə olunması sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il fevral ayının 05-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2025-ci il iyul ayının 16-da Dövlət Statistika Komitəsi aparatının Ümumi şöbəsinin müdiri Sevda Süleymanova, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Şalbuz Şahbazov və müstəqil ekspert Mehriban Babaxanovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Əliyev Əmrah Emin oğluna müsahibə komissiyasının üzvlərindən S.Süleymanova 17 bal, Ş.Şahbazov 16 bal və M.Babaxanova 13 bal vermiş və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 5.6-cı bəndinə uyğun olaraq müsahibə komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında 3 bal fərq olduğuna görə müsahibənin nəticəsi etibarsız hesab edilmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 18.07.2025-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edildiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Əliyev Əmrah Emin oğlunun Dövlət Statistika Komitəsinin aparatında Ümumi şöbənin Sənədlərin idarə olunması sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il iyul ayının 16-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: